# Dirilər üçün yazılmış nekroloq



Xəyalə ZƏRRABQIZI

Fantastik çalarları, irreal, absurd təsvirləri, milli xüsusiyyətləri ilə diqqəti cəlb edən "Nekroloq" romanı şərti-metaforik üslubun hər baxımdan tələblərinə yüksək səviyyədə tam şəkildə cavab verir.

Seyran Səxavət təsvirlərdə tünd boyalardan çəkinməyən yazıçıdır.

Şərtilik incəsənət və ədəbiyyat üçün çox mühüm əhəmiyyət kəsb edir. Şərtiliksiz incəsənətdə və eləcə də ədəbiyyatda nə gerçəkliyi bütünlüyü, tamlığı ilə əks etdirmək, nə də onun məna və mahiyyətini genişləndirmək, ümumiləşdirmək mümkündür. Çünki incəsənət və ədəbiyyat həyatın birbaşa özü deyil, həyatın bədii obrazlarla inikasıdır. Əgər sənətdə şərtilikdən tamamilə imtina edilsəydi, bu, naturalizmin geniş ölçüdə yaradıcılığa daxil olmasına, həyat hadisələrinin mexaniki inikasına aparıb çıxarardı. Adətən, şərtilikdən, şərti-metaforik üslubda yaradılmış obrazlardan geniş istifadə əsərin bədii təsir gücünü və sanbalını artıran, məkan və zaman məhdudiyyətini aradan qaldıran amil kimi dəyərləndirilir.

Bu mənada, şərti-metaforik üslubun ifadə imkanlarından istifadə ilə yazılmış, hər bir kiçik epizodu roman siqlətli, dərin məna yüklü, böyük milli və ümumbəşəri faciələri özündə ehtiva edən "Nekroloq" romanı Seyran Səxavətin, ümumən, müasir Azərbaycan romanının sənətkarlıq imkanlarını meydana çıxaran olduqca dəyərli əsərdir.

Seyran Səxavətin bu əsərinin və ümumiyyətlə, yaradıcılığının ana mövzusu dünya və insan, həyat və ölüm, işıq və qaranlıq problemidir. İctimai quruluşlar, cəmiyyətlər və saysız-hesabsız insan nəsilləri bir-birini əvəz edir, amma dünyanın yaranışından üzü bəri bu mübarizə, əbədi konflikt bitmək bilmir...

"Nekroloq" romanı son bir neçə yüzillik ərzində insanın mənəvi inkişafını və bu inkişaf prosesində insan əməllərinin "kamilləşən" bir çox mənfur cəhətlərini ustalıqla oxucuya çatdırır. İnsan həyatındakı ahəngdarlıq, ritm və harmoniya pozulanda o, nəfsin, tamahın və qəbahətin qulu olur. Və buna görədir ki, dünya hələ də gücün, zorun, mənən-mənəmliyin, işğalçı müharibələrin cəngində inləyir. "Nekroloq" romanı bu mənada adamları "adamlığ"a çağırış - haray təsiri bağışlayır.

"Nekroloq" romanında xeyirlə şərin, insanlıqla nadanlığın, namusluluqla əxlaqsızlığın, həqiqətlə riyakarlığın, ədalətlə haqsızlığın, insanpərvərliklə insana düşmənliyin, tərəqqi ilə mühafizəkarlığın çarpışması öz bədii əksini tapmışdır.

Fantastik çalarları, irreal, absurd təsvirləri, milli xüsusiyyətləri ilə diqqəti cəlb edən "Nekroloq" romanı şərti-metaforik üslubun hər baxımdan tələblərinə yüksək səviyyədə tam şəkildə cavab verir. Əsərin adında, ideyasında belə şərtilik özünü göstərir.

Bu üslubda yazılan əsərlərin, demək olar ki, hamısı - Corc Oruellin "Heyvanıstan", "1984", M.A.Bulqakovun "Master və Marqareta", Anarın "Ağ qoç, qara qoç", Y.Səmədoğlunun "Qətl günü", eləcə də Seyran Səxavətin "Nekroloq" romanları insanı mənəvi-ruhi cəhətdən öldürən, ləyaqətini, heysiyyətini tapdalayan avtoritar, despotik rejimləri kəskin satira ilə tənqid edir, zəli kimi xalqın qanını soran, milyonlarla insanın faciəsinə səbəb olan hökmdarları və onların yaramaz ideologiyasını lənətləyir.

Dr. Əhməd Sami El Aydi yazır: "Nekroloq" romanı vahid süjet əsasında yazılmış bir əsər deyildir. Romanda biri-biri ilə uzaq rabitəsi olan fərqli süjetlər verilmiş, dövrün ictimai-siyasi və mənəvi-psixoloji ab-havası bu süjetlərin çərçivəsinə hopdurulmuşdur. Seyran Səxavəti romanda düşündürən əsas məsələ son illərdə xalqın mənəviyyatına, əxlaqına yoluxmuş çirkin xüsusiyyətlərdir. Romandan hasil olan qənaətə görə, bu mənəviyyatsızlıq o dərəcədə güclənmişdir ki, onun islah olunması müşkül və mürəkkəb bir prosesə çevrilmişdir. Ona görə də yazıçının təsvirlərində sarkazm elementləri çox qabarıq şəkildə hiss olunmaqdadır. Romanın əsas qəhrəmanı olan, şərti səciyyə daşıyan Xalq obrazı əsərdəki bütün süjetləri, hadisə və əhvalatları, obrazları biri-birinə bağlayan əsas vasitə kimi düşünülmüşdür. Yazıçı əvvəllər mövcud olmuş Xalqın ölüm səhnəsini təsvir etməklə, əslində, bu ölüm fonunda millətə məxsus mənəvi-əxlaqi dəyərlərin məhv olub sıradan çıxmasına qarşı etiraz səsini ucaltmış olur. Əlbəttə, real gerçəklikdə hər hansı bir xalqın son nəfərinə qədər ölməsi faktı absurddur, lakin yazıçı belə bir hadisəni təsvir etməklə bir vətəndaş kimi həyəcan təbili çalmaq yolunu tutmuş, insanları gözləyən gələcək faciələrdən xəbərdar etməyə və çəkindirməyə çalışmışdır".

Əsərdə adları çəkilən Allahın bacısı oğlu da, Baş həkim də, Xalq düşməni də rəmzi-alleqorik səciyyə daşıyır və yüksək dövlət postlarında oturub millətə yuxarıdan aşağı baxan, başçıların ümumiləşdirilmiş obrazıdır.

Romanda bu cür şərti-metaforik situasiya, rəmzi obrazlardan istifadə etməklə öz düşüncələrini oxucusuna çatdıran Seyran Səxavət xalqın taleyüklü problemlərini yüksək bədiiliklə əks etdirmişdir.

Romandakı Xalq Elçinin "Mahmud və Məryəm" əsərindəki camaat obrazını, Sabir Əhmədlinin "Kütlə" romanındakı kütləni xatırladır. Yusif Səmədoğlunun "Qətl günü" romanındakı Kirlikir obrazı da elə Xalqın ümumiləşmiş obrazıdır. Əsəri oxuduqca Kirlikirin fədakar, zəhmətkeş, lakin qədir-qiyməti bilinməyən Xalq olduğu tamamilə anlaşılır. Bu əsərlərdəki Xalq obrazlarını müqayisə etdikcə müəlliflərin bədii priyomunun orijinallığı xüsusilə diqqəti cəlb edir.



Məşhur estetik Y.Borev yazırdı: "Əsərin əsasında duran həyat materialı sənətkarı öz arxasınca aparır və o gözlənilməyən bir nəticəyə gedib çıxır. Əsl sənət əsərinin özəlliyi də məhz bu hadisədən hadisəyə keçidlərin və nəticənin gözlənilməz olmasıdır". Bu mənada, Seyran Səxavətin əsərlərində, yazıçının oxucunu hadisələrin axınına salıb aparması və sonun gözlənilməzliyi diqqəti çəkir. Həmçinin, müəllif təsvir etdiyi məkanları *böyük* məkanın bir parçası kimi ümumiləşdirə bilir, yəni əsərdə haqqında söhbət açılan xəstəxana geniş anlamda məmləkətin və dünyanın balaca modeli kimi ümumiləşdirilir: Bu xalqın məskun olduğu məmləkəti Seyran Səxavət əsərin əvvəlində haqlı olaraq xəstəxanaya bənzədir: "Dünyanın heç bir yerində bu boyda xəstəxana yoxdu, yaşı min illəri çoxdan keçib. Dünyanın xəritəsinə də düşüb və başqa xəstəxanalardan fərqi ondadır ki, buranın xəstələri burda doğulur, yaşayır və burda da dəfn olunurlar: artırlar, azalırlar, yeyirlər, qırılırlar, uçurlar, sürünürlər, şorab içirlər, qan içirlər, ac qalırlar, tox qalırlar, xəcalət çəkirlər, şəkil çəkirlər, əziyyət çəkirlər, dərd çəkirlər, araq çəkirlər, nəşə çəkirlər, qonşunun xainliyini çəkirlər, birbirinə kəm baxırlar, ələ baxırlar, dilənirlər, ev tikirlər, ev yıxırlar, qanırlar, qanmırlar, rüşvət alırlar, heç kəsi bəyənmirlər, halal çörək qazanırlar, haramlıq edirlər, borc alırlar, borc verirlər, qəzet buraxırlar, televiziyada danışırlar, alınırlar, satılırlar, teatr çıxardırlar, toyuq oğurlayırlar, Allahsız-Allahsız danışırlar, qoyun başı kəsirlər, adam başı kəsirlər, hərdən-birdən də sevirlər..." Bu sözlər ötən əsrin real mənzərəsini bütün ziddiyyətləri ilə gözlərimiz önündə canlandırır.

Şərtilik baxımından "Nekroloq" romanında Seyran Səxavət bədii təsvirdə zaman və məkan hüdudlarını genişləndirir. Romanda XX əsr Azərbaycan cəmiyyətinin ictimai-siyasi və mənəvi mənzərəsi bütöv və geniş planda əks olunaraq cəmiyyətin bütün zümrələrini əhatə edir: çadırlarda cəhənnəm əzabı yaşayan soydaşlarımızdan tutmuş nəhəng maliyyə fırıldaqları ilə məşğul olan mafioz qruplara qədər.

Seyran Səxavət təsvirlərdə tünd boyalardan çəkinməyən yazıçıdır. Qrotesk onun təkcə çox sevdiyi bədii təsvir məqamlarından biri deyil, həm də yaradıcılığının üslubi məziyyətlərindən biridir. Bu mənada "Nekroloq"u qrotesk-roman adlandırmaq olar. Hətta qeyd edək ki, "Nekroloq" adı özü də qroteskdir. Çünki romanda bir adamın, yaxud bir ailənin yox, bütöv xalqın mənəvi ölümündən söhbət gedir.

İfşaedici və öldürücü satirası, dramatizmi, ironik və tragik məqamları ilə diqqəti cəlb edən bu roman dünya ədəbiyyatında diri olan xalqa yazılmış ilk nekroloqdur.

Yazıçını narahat edən məqamlardan biri də budur ki, həyat səviyyəsinə görə ölkədə bir-birindən kəskin şəkildə fərqlənən iki təbəqə mövcuddur. Ailələrin birində beş yaşlı körpə qızcığaz müharibə veteranı, əlil atasının qucağında aclıqdan və soyuqdan dünyasını dəyişir. Başqa bir ailədə isə onun həmyaşıdı olan qızın doğum günü olduqca yüksək səviyyədə qeyd olunur, ona brilyantlar bağışlanır. Belə təzadlı məqamlar sadalamaqla bitməyəcək qədər çoxdur. Əsərdə övladı ölən Ana aclıqdan və soyuqdan, ehtiyac üzündən övladlarını itirən yüzlərlə anaların ümumiləşdirilmiş rəmzi obrazıdır. Qızını - bu dünyadakı yeganə sevincini itirmiş, dərddən beli vaxtsız bükülən bu gənc Ananı Seyran Səxavət çox təsirli metafora ilə çadır şəhərciyindəki dünyanın hər sərt üzünü görüb vaxtından tez qocalmış ağaca bənzədir. "Bu ağacı yazıq Miçurin də tanıya bilməzdi, ağac vaxtından tez qocalmış, dünyanın min bir əziyyətini dadmış liliput adama oxşayırdı".

Övladını itirən gənc Ana insanları bu günə, bu bəlalara salanları, çörəyə möhtac edənləri qarğıyır. Ana qarğıdıqca onun ətrafındakı bütün qadınlar yerbəyerdən "Amin! Amin!" - deyirlər. Gözüyaşlı, ürəyiyanğılı anaların qarğışları və "Amin!" nidaları bütün çadır şəhərciyini lərzəyə gətirir.

Digər epizodda isə varlı ailənin övladının doğum gününə toplaşanlar qızı təbrik etməklə yanaşı bir-birinin ardınca badələr qaldırır, sağlıqlar deyir, alqışlar - dualar edirdilər.

Bir - birindən kəskin dramatizmi ilə fərqlənən bu təzadlı məqamlar romanın bədii təsir gücünü artırır, konflikti daha da dərinləşdirir.

Bu epizodların təsvirindən də aydın görünür ki, yazıçı şərti - metaforik kolliziyalardan istifadə etsə də, zamanın, dövrün, şərin, eybəcərliyin tənqidi zamanı sərt və amansızdır.

Əsərdə diqqəti cəlb edən rəmzi obrazlardan biri "səkinin qırağına muncuq kimi düzülənlər"dir. İşsizlikdən, imkansızlıqdan yolların,

səkillərin kənarına "muncuq kimi" düzülüb beş manat çörəkpulu qazanmaq üçün əməyini satan bu insanlar heç bir maddi təminatı olmayan, gün çörəyinə möhtac olan, ehtiyac ucbatından "qul bazarında" öz əməyini satan Qarabağ müharibəsi veteranlarının - qazilərin ümumiləşdirilmiş obrazıdır. Müharibədən qazi qayıtmış, amma müəyyən qədər sağlamlığını itirən veteranların bu cür toplaşaraq öz əməyini satması oxucunun gözləri qarşısında "Qədim dünya tarixi" kitablarındakı qul bazarını xatırladır və bu həssas yazıçını göynədir: "Qazilərin qul bazarında özünü satdığını görən camaat ən azı hiss eləməliydi ki, onların gözlərinin qarşısında tarix geriyə - çox qədimlərə döndü və onlar da bu dönüşün canlı şahidi oldular".

Sosial bərabərsizlik, insanların həyat şəraiti arasındakı kəskin fərqlər, insanın və insanlığın məhvinə yönələn müharibələr, savaşlar lokal səciyyə daşıyan bir məsələ deyil. Məhz Seyran Səxavətin qələminin böyüklüyü ondadır ki, böyük cəsarətlə və fəal müəllif mövqeyi ilə qlobal mahiyyət daşıyan bu kimi problemləri "Nekroloq" romanında bədii sözün təhlil obyektinə çevirmişdir.

Müharibənin insanlara gətirdiyi bəlalar bununla bitmirdi. Məmləkət elə bir vəziyyətdə idi ki, bir başıpapaqlı qalmamışdı. Kənddə ayağı yer tutan bir başıpapqlı qalmışdı - bədən tərbiyə müəllimi, o da çolaq idi. Bu çolaq müəllim hər gün dərsdən sonra şagirdləri kəndin yollarında o baş-bu başa yeridirdi. Yeridirdi ki, kəndin ot basmış yollarında cığır açılsın, yeridirdi ki, kəndə gələn yollar ot-ələf əlindən itməsin, cığırlar açılsın yollarda. Yeridirdi ki, bu kənd yer üzünün xəritəsindən silinməsin... Amma kənddə ondan başqa bir başıpapaqlının olmaması ağrısı bədən tərbiyəsi müəllimini də elə yazıçını sarsıtdığı kimi mənən əzirdi, incidirdi: "Sabah elə bu bədən tərbiyəsi müəlliminin dünya görmüş atası, yaxud bir qeyrisi Allahın əmri ilə ölüb getsəydi, cənazəyə ancaq qadınlar girəcəkdi. Dünyadan getmiş adamın məzarını da elə qadınlar qazacaqdı". Yer üzündə bundan böyük əzab, ağrı, dərd yoxdu. Millətin faciəsi elə burdan başlayırdı.

"Nekroloq" romanında Seyran Səxavətin bir kəndin, bir elin timsalında bədii ümumiləşdirmələrlə qələmə aldığı bu hadisələr, əslində, bütün dünyada baş verən, insanlığın, xeyirin, işığın təməlini kökündən sarsıdan sosial-siyasi və mənəvi-əxlaqi problemlərdir. Elə problemin bəşəriliyi də onun mahiyyətindədir.

Romanda yazıçı mühacirlik faciəsindən sui-istifadə edən, bunu şəxsi gəlir mənbəyinə çevirən insanların da olduğuna işarə etmiş, onların fəaliyyətini də canlandırmışdır. Bu baxımdan əsərdə ölkənin hüdudlarından kənarda mühacir həyatı yaşayan, torpağa, yurda həsrət qərib soydaşlarına "böyük yaxşılıq edən", vətən torpağını qarış-qarış satan və bundan xeyli varlanan Keçəl kişi obrazı diqqəti cəlb edir. Bu obraz da rəmzi səciyyə daşıyır və Keçəl kişinin timsalında müəllif şəxsi güzəranını milli mənafedən üstün tutan xudbin insanları ümumiləşdirir. Belə bir xarakter yaratmaqla Seyran Səxavət millətin düşüncəsindəki naqisliyi, bütün məsələlərə şəxsi mənafe baxımından yanaşmaq tendensiyasından əl çəkə bilməməyini, milli talc ilə bağlı düşünmək imkanlarından məhrumluğunu bədii təhlilin predmetinə çevirir.

Əsərdə milli şüurla bağlı maraqlı bir məqam var ki, Seyran Səxavət öz düşüncələrini Mirzə Fətəli Axundzadənin, Mirzə Ələkbər Sabirin, Hacı Zeynalabdin Tağıyevin nitqi ilə oxucuya çatdırır. Nizaminin, Nəsiminin, Natəvanın, Axundzadənin, Sabirin, Tağıyevin heykəlləri Füzulinin heykəli qarşısında mitinqə toplaşıb. Bütün heykəllər birbir xalqa müraciət edərək onları birliyə çağırır. Şərti-metaforik planda işlənmiş bu səhnədə heykəllərin nitqində tarixi gerçəkliyin və bugünün həqiqətləri öz əksini tapmışdır.

"Nekroloq" romanı tarixiliklə səsləşən müasirliyi, həyati materialların zənginliyi, müəllifin ustalıqla ümumiləşdirə bilmək bacarığı və mövqeyinin aydınlığı, problemlərin yüksək sənət dili ilə ifadəsi, fikrin məcazlarla, rəmzi-bədii ümumiləşdirmələrlə verilməsi ilə diqqəti cəlb edir. Adət-ənənələrin tapdalandığı, mənəviyyatın aşındığı, xalqın kütləyə çevrildiyi bir məqamda yazıçı cəmiyyətdə baş verən hadisələri bütün canlılığı ilə emosional şəkildə təsvir edir. Romanda ictimai şüur və milli birlik problemi geniş planda öz bədii həllini tapmış və yazıçı öz işıqlı düşüncələri ilə millətin oyanışına və tərəqqisinə mane olan hər cür qüsurları aradan qaldırmağa, cəmiyyəti köləlikdən insanlığa və əsarətdən hürriyyətə doğru yüksəltməyə, insanları maariflənməyə, özünün və sözünün sahibi olmağa çağırmışdır.

Ədəbiyyat, vicdanlı yazıçı, şair cəmiyyətə sadəcə olaraq xəbərdarlıq etməyi və düzgün olan yolu göstərməyi bacarır. Əgər ziyalıların, yazıçıların həyəcan siqnalı eşidilmirsə, yaxud eşidilib etinasızcasına qulaqardına vurulursa, bu artıq yazıçının yox, cəmiyyətin günahıdır.

**Ədəbiyyat.- 2016- cı il.- 26 noyabr.- S. 19.**